# Azərbaycan multikulturalizmi və tolerantlığı dünyaya nümunədir

**Multikulturalizm və tolerantlıq sahəsində ölkəmizin əsrlər boyu inkişaf etdirib formalaşdırdığı nadir dəyərlər dünyada zəngin təcrübə kimi qəbul edilməkdədir. Bir çox dövlətlərin başçıları, tanınmış ictimai-siyasi xadimlər, politoloqlar, ziyalılar və regionşünaslar, beynəlxalq təşkilatların nümayəndələri bu faktı böyük razılıqla etiraf edirlər. Ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin yüz illər boyu birgə yaşaması, onlara heç vaxt ayrı-seçkilik qoyulmaması, müstəqilliyimizin bərpasından sonra ölkə rəhbərliyinin təşəbbüsü ilə mühüm Avropa və dünya miqyaslı müxtəlif mədəni kütləvi tədbirlərin Azərbaycanda və xarici ölkələrdə təşkil olunması buna ən yaxşı sübutdur.**

Dövlətimizin dəstəyi ilə bir sıra ölkələrdə müalicə-sağlamlıq mərkəzlərinin, uşaq tərbiyə müəssisələrinin, məktəblərin inşa etdirilməsi Azərbaycan multikulturalizmin bariz nümunəsi kimi qiymətləndirilir. Bir neçə il əvvəl Heydər Əliyev Fondu tərəfindən Pakistanda qızlar üçün məktəbin tikilib istifadəyə verilməsi dünyada təqdirəlayiq hal kimi qiymətləndirilib. Belə humanist addımlarımız kifayət qədər çoxdur.

Bu günlərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Bosniya və Herseqovinanın Kotor Varos şəhərində tikilib istifadəyə verilən Təcili Tibbi Yardım Mərkəzi bu xalqa böyük bir hədiyyə oldu. Ölkənin rəhbərliyi Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya öz minnətdarlığını bildirib. Bu münasibətlə orada keçirilən açılış mərasimində çıxış edən şəhər ictimaiyyətinin nümayəndələri tibb müəssisəsini iki xalqı birləşdirən dostluq rəmzi kimi qiymətləndirdilər. Qeyd etməliyik ki, multikulturalizm sahəsində əldə etdiyimiz uğurlar uzun illər aparılan ağıllı siyasət nəticəsində mümkün olub.

Azərbaycan multikulturalizmi və tolerantlığı barədə danışarkən təşkil olunan, tərəfdaşlığa, dostluğa yönələn beynəlxalq tədbirləri qeyd etmək vacibdir. Azərbaycan bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir. Onlardan bir neçə idman tədbiri daha geniş spektrə malikdir. O tədbirlər ki, onun mahiyyəti yalnız idmanla məhdudlaşmır. Birincisi üç il əvvəl keçirilmiş ilk Avropa Oyunlarıdır. Oyunlar Bakıda təşkil edilmişdi və onlar iki nöqteyi-nəzərdən rəmzi xarakter daşımışdır. Birincisi, ona görə ki, bu günədək digər qitə oyunlarından fərqli olaraq Avropa Oyunları təşkil edilməmişdi. İkincisi isə, ilk Avropa Oyunlarının müsəlman ölkəsində keçirilməsidir. Bu oyunlar Yay Olimpiya Oyunları səviyyəsində təşkil olunmuşdu və həqiqətən də birlik və dostluq festivalına çevrilmişdi.

Prezident İlham Əliyevin yeritdiyi xətdən tamamilə aydın olur ki, İslam Həmrəyliyi Oyunları idman tədbiri olmaqdan başqa həm də xalqlar arasında dostluğun, qardaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir. Bu, indiki zəmanəmizdə ən ali niyyət, müqəddəs məramdır. Dünyanı müharibələrin, böhranların, dini zəmində qarşıdurmaların bürüdüyü bir dövrdə bu idman oyunları əslində müxtəlif xalqları bir-birləri ilə yaxın münasibətlər qurmağa, mövcud əlaqələri isə daha da sıxlaşdırmağa təşviq edir. Bu baxımdan indiki son dərəcə həssas dövrdə, İslam ölkələrinin sosial fəlakətlərə, dağıntılara, öz vətənlərindən didərginliyə və təhlükələrə məruz qaldığı bir zamanda belə bir ideya ilə çıxış etmək olduqca vacibdir. Bu, ölkəmizin bu dəyərlərə söykənərək qazandığı zəngin insanpərvərlik təcrübəsini həm dünyaya təqdim etmək, həm də onu başqalarına da qəbul etdirmək kimi ali məqsəd güdür. Bu təşəbbüs təbii ki, hamı tərəfindən müsbət qarşılanır. Prezident İlham Əliyevin dediyi kimi, bu, təkcə dini deyil, iqtisadi, siyasi, mədəni, mənəvi, beynəlxalq məsələdir, ölkələrarası münasibətlərin normallaşmasına gətirib çıxaran bir imkandır. Bütün bunlara görə, dövlət rəhbərimizin bu təşəbbüsü islam ölkələrinin, islam aləminin özünün daxilində olan qarşıdurmaların aradan qaldırılmasına yönəldilib. Bu, düşüncələrin, mövqelərin və nəhayət, "İslam həmrəyliyi nədir və ona nail olmaq üçün nə etmək lazımdır?" təsəvvürünün formalaşmasına aydınlıq gətirir. Prezident İlham Əliyevin çağırışı əsasən, xristian dünyasına, başqa dinlərə edilən ən qiymətli bir çağırışdır. Bununla bərabər islamı təhlükə mənbəyi kimi, demokratiyaya düşmən ünsür və terrorçu din kimi təqdim edənlərə bir mesajdır. Sadə bir suala: "Bu gün kimin qanını kim tökür?" sualına cavab tapmaq çətin deyil. Müharibə ocaqları yalnız müsəlman ölkələrində qalanır. Bu ondan xəbər verir ki, insanlar dini müxtəlifliyə görə bir-birilərini qırıb yaşamaqdan məhrum edirlər. Halbuki İslam dinində və eləcə də digər dinlərdə ümumi fəlsəfə belədir ki, insana həyatı Allah verdiyi kimi, o da ala bilər. Yəni Allahın yaratdığı insan ona verilən ömür payını öz əcəli ilə ölənədək yaşamalıdır, ən qatı cinayət edib həbsxanaya düşsə belə. Məhz buna görədir ki, dünyanın bir çox sivil dövlətində ölüm cəzası ləğv edilmişdir, o cümlədən Azərbaycanda da.



Dünyanın bir çox tanınmış və başqa dinlərə mənsub olan adamlarının İslam dinini qəbul etməsi bu dinə süni surətdə yapışdırılan damğaları qoparıb atır. Xalqımız min illər ərzində bizə pənah gətirən insanları Allahın yaratdıqları kimi qəbul edib və ona öz isti ocağının başında yer verib. Bütün dünyanın sülhsevər xalqları və dövlətlərin rəhbərləri İslamı təhdid edənlərə, dinlər arasında ayrı-seçkilik salanlara, beynəlxalq terrora rəvac verənlərə birləşib "Stop" deməlidirlər. Ona görə də İslam həmrəyliyinə nail olmaq bütün dünya dinlərinin, mədəniyyətlərinin, sivilizasiyaların bir araya gəlmək və harmoniya yaratmaq imkanlarını daha da genişləndirmək lazımdır. Bu baxımdan Azərbaycan dövlətinin başçısının bu qiymətli təşəbbüsü təkcə Azərbaycan və İslam ölkələri üçün deyil, bütövlükdə bəşəriyyət üçün böyük həyati əhəmiyyət daşıyır. Belə böyük missiyanın həyata keçirilməsində böyük Allah özü möhtərəm Prezidentimiz İlham Əliyevə kömək olsun!

**Vəli İlyasov,**
***"İki sahil"***